# Şəhid ocaqlarının işığı sönmür...



❒ *Bu dəfə səssiz-səmirsiz getdik Gədəbəyə. Gəlişimizdən nə rayon icra hakimiyyəti başçısının xəbəri oldu, nə də ki, onların kəndlərdəki nümayəndələrinin. Doğrusu, belə olanda özünü daha rahat hiss edirsən. Çünki görüşdüyün, söhbətləşdiyin adam ürəyindən keçənləri sərbəst deyə bilir, səninlə bir növ dərdləşir, problemlərini dilə gətirir, nöqsanları gizlətməyə çalışmır. O ki, ola şəhid ailəsi. Həmişə yanıqlıdır, kövrəkdir, gözü qapıdadır, gileyqüzarlıdır... Qınamayaq onları. Oğul itiribdir, oğul! Gileylənəcək də, kimlərinsə arxasınca danışacaq da, küsəcək də, ağlayacaq da. Amma gözünün yaşı qurumamış "Vətən sağ olsun" deyib qolumuzdan tutacaq, bir stəkan çaya qonaq edəcək.*

Gədəbəydə şəhid ailələrinə, Qarabağ müharibəsi iştirakçılarına, əlillərə, imkansızlara münasibətin necə olmasından xəbərdar idik. Bilirdik ki, bu kateqoriyadan olan adamlara münasibət burada birmənalıdır: diqqət, qayğı, kömək. Yadımdadır, bir dəfə bu mövzuda söhbət düşəndə rayon icra hakimiyyəti başçısının müavini Vüsal Musayev dedi ki, hansısa şəhidin adı çəkiləndə, başçımız bütün işini- gücünü bir kənara qoyub, onun ailəsinin qarşılaşdığı problemin həllinə çalışır. Özü onun evinə baş çəkir, işin gedişinə nəzarət edir.

Özüm də bunun şahidi olmuşdum. İlyarım qabaq icra hakimiyyəti başçısının vətəndaşların qəbulu işini necə təşkil etməsi ilə bağlı yazı hazırlamaq barədə redaksiyadan tapşırıq almışdım. Onda görmüşdüm ki, RİH başçısı Ramiz Yediyarov adamlara, o cümlədən şəhid ailəsinin üzvlərinə qarşı nə qədər həssasdır. Qəzetimizdə dərc olunan "Gədəbəy: vətəndaş-məmur münasibəti tamam dəyişib" sərlövhəli geniş yazıda da qeyd etmişdik ki, rayon rəhbəri qəbula gələnlərin az qala hamısını adbaad tanıyır, şəhidlərin isə tərcümeyihalını əzbər bilir, ailəsinin şəraitindən tamamilə xəbərdardır. Bu da onunla bağlıdır ki, R.Yediyarov işlədiyi bu illər ərzində Gədəbəyin kəndlərini qarış-qarış gəzib, səyyar qəbullar keçirib, sərhəd bölgəsində – Şınıxda dəfələrlə olub, ən imkansız adamların qapısını açıb.

...Slavyanka kəndindəyik. Baharın qəfil gəlişi, havaların mülayim keçməsi adamların qapıda-bacada işləməsinə, pay torpaqlarına toxum səpməsinə imkan yaradıb. Toxum deyəndə ki, gədəbəylinin əsas səpini kartofdur. İndi əkir, avqustun sonu – sentyabrın ortalarında da məhsulunu yığır.

Mansır kişi də evinin arxasındakı sahəni şumlayıb və üzə qaldırılan torpağın, necə deyərlər, bir balaca təpdimməsini gözləyir. Qabarlı əllərini irəli uzadıb "xoş gəlmisiniz!" deyərək bizi içəri dəvət edir. Heç tanımır bizi. Soruşmur da. Amma biz onu tanıyırıq. Bilirik ki, şəhid atasıdır. Qarabağda ermənilərə qarşı döyüşdə qəhrəmancasına həlak olan Bəxtiyar Vəliyevin atasıdır. Əllərindən görünür ki, əkin-biçinlə özü məşğul olur. Üzünü kürsülü, səliqəli evinə sarı çevirib "ay uşaq çay - çörək gətir" deməsi isə gədəbəylilərə xas qonaqpərvərliyindən xəbər verir.

Minnətdarlıq edib elə həyətdəcə söhbət edirik. Söz yerli icra orqanlarının şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan düşür. Deyir: Elə bayram, tarixi gün olmaz ki, qapımız döyülməsin və söhbət icra hakimiyyətindən göndərilən paydan-ərzaqdan getmir. Mən diqqəti, isti münasibəti bu paylardan üstün tuturam. Onsuz da hökumətimiz, Prezidentimiz sağ olsun, elə bir şərait yaradıb ki, əməlli-başlı dolanırıq. Şəhid ocaqlarının işığı heç vaxt sönmür.

Mansır kişinin danışığından, hərəkətlərindən hiss olunur ki, gözükönlü tox adamdır. Yeganə arzusu Qarabağa getmək, oğlu Bəxtiyarın sonuncu dəfə ayaq qoyduğu torpağı qucmaq, öpməkdir. Deyir ki, o, bu torpaq uğrunda canından keçib. Buna görə gərək Vətənimizi, onun torpağını sevək, göz bəbəyimiz kimi qoruyaq. Şəhid atası keçən il rayon icra hakimiyyətinin Müdafiə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə təşkil etdiyi "Hər kənddən bir ağsaqqal, hər səngərdən bir əsgər" tədbirindən danışır və deyir ki, elə bildim oğlum sağdır və o, bu gün də səngərdədir. Yeniyetmələrin, çağırış yaşlı gənclərin gözlərində düşmənə nifrət gördüm, ağsaqqalların nəsihətini eşitdim. Gədəbəydə buna bənzər tədbirlər nəinki gənclərin, biz şəhid valideynlərinin də bir növ təsəllisi, qürur mənbəyi, fəxri, yaxınlaşmaqda olan qələbəyə inamıdır.

Mansır kişinin sözlərinə qüvvət, Gədəbəy Rayon İcra Hakimiyyətinin ideoloji sahədə apardığı işin ana xəttini bu cür hərbi-vətənpərvərlik tədbirləri təşkil edir. Gədəbəyin Şınıx bölgəsində həlak olanlar, Kəlbəcər, Ağdam, Ağdərə, Füzuli, Zəngilan və başqa yerlərdə azğın erməni faşistləri ilə döyüşlərdə canlarından keçənlər valideynlərini gözüyaşlı qoysalar da, müqəddəs torpaq uğrunda vuruşublar. Gədəbəy bu günədək 212 nəfər şəhid verib. Onların 4 nəfəri Azərbaycanın Milli Qəhrəmanıdır. Məzahir Rüstəmov, İlham Əliyev, Aytəkin Məmmədov və İskəndər Aznaurovun adları təkcə Gədəbəydə deyil, ölkənin hər yerində tanınır, onların cəngavərliklərinə şeirlər qoşulur, kitablar yazılır, adları əbədiləşdirilir.

Rayon icra hakimiyyətinin başçısı Ramiz Yediyarovun Gədəbəydə işə başladığı gün ilk getdiyi ünvan Şəhidlər xiyabanı olub. Çox keçməyib ki, bu ünvan öz görkəmini tamamilə dəyişib. Burada aparılan əsaslı yenidənqurma işlərindən sonra məktəblilərin, ordu sıralarına yola düşən gənclərin and yerinə çevrilib.

Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün rayonda yaşayış binaları tikilməyə başlanıb, 16 və 24 mənzilli binalar, 6 fərdi yaşayış evi tikilib istifadəyə verilib. Təbii ki, hamının arzusunu, istəyini bir günün içərisində həll etmək mümkün olmur. Lakin rayon icra hakimiyyəti, digər müvafiq strukturlar bu işi bir an belə diqqətdən kənarda qoymurlar. Hacıələkbərli kəndindən Qulu Qəhrəmanov, Qaraməmmədli kəndindən Mehvalı Qasımov, Gərgər kəndindən Bəsti Abdullayeva, rayon mərkəzindən Vəzifə Qurbanova, Rəfiqə Qəhrəmanova, Saleh Məmmədov, Novoivanovkadan Səxavət Fətəliyev, Mormor kəndindən Qüdrət Qasımov və adlarını çəkə bilmədiyimiz onlarla şəhid valideynləri bu diqqətin, qayğının daim üzərlərində olduqlarını bildirir, mənzil-məişət şəraitlərinin kökündən yaxşılaşdırıldığından həddsiz razılıq edirlər.

Yuxarıda qeyd etdiyimiz kimi, şəhid ailələri mənəvi dayağı daha üstün tuturlar. Şəhid ailələrinin üzvləri ən müxtəlif tədbirlərə dəvət olunur, onlara söz verilir, arzu və istəkləri dinlənilir. Məktəblərdə şəhidlərin döyüş yolu təbliğ olunur, onların guşələri təşkil edilir. Daha bir xeyirxah iş "Gədəbəy şəhidləri" kitabının ərsəyə gətirilməsi və onun nəfis şəkildə çap edilməsidir. Ordu mövzusu, vətənpərvərlik tərbiyəsi işi bu gün Gədəbəydə əsas mövzudur. Rayonda ali hərbi məktəblərə daxil olmaq, zabit adına yiyələnmək istəyənlərin sayı ilbəil artır. Hazırda bütün qoşun növlərində, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində yüzlərlə rayon sakini öz əsgəri borcunu şərəflə yerinə yetirir.



Slavyanka kəndində olarkən başqa bir şəhid ailəsinin də qapısını döydük. Bu, şəhid Şərif Abdullayevin evi idi. Məlum oldu ki, şəhidin oğlu Ramin hazırda hərbi hissədə çalışır və bu peşəni seçməsi ilə fəxr duyur, atasının qanını yerdə qoymayacağını bildirir. Elə oğlu, şəhidin nəvəsi balaca Şərif də sanki bu hisslərlə böyüyür. Əlindəki oyuncaq avtomatı uzaqdan görünən dağlara sarı tuşlayır və deyir ki, bilirəm, düşmənimiz dağın o tayındadır. Atam nə vaxt desə, avtomatımı da götürüb yollanacağam ora.

Şəhidin həyat yoldaşı Əntiqə xanım yaşayış sahələrinin tezliklə yaxşılaşacağına ümidvar olduğunu bildirdi. Dedi təqsir özümüzdədir. Əməlli-başlı evimiz vardı. Ramin satdı, maşın aldı özünə. Rayondan tez-tez gəlib maraqlanırlar, bayramlarda yada salırlar, körpələrlə maraqlanırlar. Adama daha necə kömək edərlər?

Qeyd edək ki, ermənilərin gözü həmişə Gədəbəy rayonunda olub. 1948-1953-cü illərdə azərbaycanlıların Qərbi Azərbaycandan məcburi qovulmasına nail olan ermənilər himayədarlarının köməyi ilə Şınıx bölgəsində yerləşən Qaravəllilər, Hacılar, Göyəli kəndlərinə məxsus 730 hektar torpağın zəbt olunmasına, Tağlar kəndinin əhalisinin isə öz doğma yurd-yuvalarından köçürülməsinə nail olsalar da, Heydər Əliyevin 1969-cu ildə Azərbaycan hakimiyyətinə gəlişi ilə bu hadisələrə dərhal müdaxilə edilmiş və ulu öndərimizin apardığı məqsədyönlü siyasət nəticəsində məsələ öz operativ həllini tapmış və digər rayonlarımızda olduğu kimi, Gədəbəydə də geniş abadlıq-quruculuq işlərinə başlanılmışdır.

Gədəbəylilər keçən əsrin əvvəllərindən erməni daşnaklarına qarşı mübarizədə, Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin qazanılmasında, eləcə də Qarabağ müharibəsində öz layiqli sözlərini demişlər. İki nəfər Sovet İttifaqı Qəhrəmanı, dörd nəfər Azərbaycanın Milli Qəhrəmanı əslən Gədəbəy rayonundandır.

Ulu öndərimiz vəzifədən uzaqlaşdırıldıqdan sonra Gədəbəy rayonu yenidən ermənilərin hədəfinə çevrilib. Şınıx bölgəsinin iki kəndi, Mutudərə və Qasımağalı kəndləri yandırılıb. Lakin buna baxmayaraq, Milli Ordumuzun mərd və mübariz əsgərləri, eləcə də Gədəbəyin igid oğulları erməni quldurlarını dərhal Başkənd kəndindən və Şınıx bölgəsinin işğal edilmiş hissələrindən tamamilə təmizləyiblər.

Ulu öndərimizin yenidən Azərbaycan hakimiyyətinə qayıdışı və prezident seçilməsi gədəbəylilərin vətənpərvərlik ruhunu daha da artırmış və onlar həm ön, həm də arxa cəbhədə yenə öz xidmətləri ilə Vətənə bağlılıqlarını bir daha sübut ediblər.

...Gərgər kəndində də şəhid ailələrinin durumu ilə maraqlandıq. Soraqlaşıb şəhid atası Dilqəm Mahmudovun evini tapdıq. Bizi görüb həyəcanlanır, əlləri əsir. Deyir, oğlu İntiqam Qarabağ savaşında ermənilərə qan uddurub. Təsadüfi deyil ki, kənd məktəbi onun adını daşıyır. Sağ olsunlar, məni tez-tez tədbirlərə çağırırlar, İntiqamın uşaqlığı, nəyə maraq göstərdiyini öyrənmək istəyirlər. Mən də bildiklərimdən danışıram. Düzü, bəzən gedə bilmirəm, səhhətim imkan vermir.

Şəhid atasının səhhətində problemin olduğu açıq-aşkar hiss olunurdu. Buna baxmayaraq, fiziki işlə məşğul olduğunu, ruhdan düşmədiyini bildirdi.

Gərgər İntiqam Mahmudovdan başqa daha iki şəhid verib. Fəzail Abdullayev və Mahir Kərimov. Hər ikisinin ailəsi onlara göstərilən diqqət və qayğıdan razı olduqlarını dilə gətirdilər. Dedilər ki, Gədəbəydə bu isti münasibət onların dərdlərini az da olsa, unutdurur.

Rayondan şər qarışanda qayıtdıq və nə yaxşı ki, bu qəfil gedişdən xoş təəssüratla ayrıldıq. Bizi ən çox sevindirən isə şəhid ailəsi üzvlərinin dövlətimiz və onun rəhbəri haqqında ağızdolusu danışmaları oldu. Hiss olunur ki, Gədəbəydə dövlətə və dövlətçiliyə, qələbəmizə böyük inam var. Adamlar xırda hisslərlə yaşamır, öz məişət məsələlərini qabartmırlar. Ata, oğul, qardaş itkisini bu inam unutdurub. İnam güclü olanda qılıncdan daha kəsərli olur. Elə rayonun girəcəyində əlində misri qılınc tutan "Koroğlu" abidəsi də sanki bunu deyir.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***